Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

6 sentyabr 2025-ci il №33 (9139) www.muallim.edu.az muallim@media.edu.az

# "Universitetlərdə insan gənclik həyatını yaşayır"



## "Mən arzu edərdim ki, bizim hər bir gənc, hər bir tələbə bu dövrü uğurla keçsin"

"Universitetlərdə insan gənclik həyatını yaşayır. Mən sizə deyə bilərəm ki, bu, insanın həyatının ən gözəl bir hissəsidir. Mən arzu edərdim ki, bizim hər bir gənc, hər bir tələbə bu dövrü uğurla keçsin. Çünki bu dövrdə gəncin formalaşması, onun lazımi bilik alması, lazımi mənəvi dəyərləri dərk etməsi, milli dəyərləri dərk etməsi, müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir. Əgər bu təməl gənclik dövründə, xüsusən, ali məktəblərdə qoyulmasa, birincisi, gələcəkdə bizim gənclər böyük çətinliklərlə rastlaşacaqlar və ikincisi, gələcək nəsillərin istədiyimiz səviyyəyə qalxması çətin olacaqdır. Ona görə də, əziz övladlarımız, siz bilin, mən həyatın bütün mərhələlərini keçmiş bir adam kimi, arxaya baxaraq, hər dövrü təhlil edərək, həyat təcrübəsi olan adam kimi sizə deyirəm: bu illəri boş keçirməyin, bu illəri itirməyin. Öz fiziki sağlamlığınıza fikir verin. Onun üçün də gərək siz sağlam həyat tərzində yaşayasınız. Çalışın, maksimum bilik alın. Siz təkcə müəllimlərin verdiyi biliklə kifayətlənməyin, başqa bütün ədəbiyyatla da tanış olun və yüksək mənəvi dəyərlər əsasında yaşayın".

**Ümummilli Lider Heydər Əliyevin ali məktəblərə ən yüksək balla qəbul olunmuş gənclərlə görüşündəki nitqindən** *(3 sentyabr 2001-ci il)*